# Türk millətinin iradəsi hərbi qiyama qalib gəldi

## *Prezident Rəcəb Tayyib Ərdoğan: "Türkiyənin böyüməsini, bu millətin güclənməsini həzm edə bilmirlər"*

Türkiyə Cümhuriyyəti tarixinin ciddi sınaqlarından birini yaşadı. Srağagün axşamdan etibarən bir qrup hərbçi ölkədə dövlət çevrilişi etməyə cəhd göstərmişdi. Qiyamçılar əvvəlcə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahını ələ keçirib Baş Qərargahın rəisi, ordu generalı Hulusi Akarı girov götürmüş, sonra paytaxt Ankarada Jandarma Baş Komandanlığını, TRT, TürkTelekom, TÜRKSAT idarələrini və digər strateji obyektləri zəbt etmişdilər. Onlar İstanbulda da hərəkətə keçib Atatürk və Sabiha Gökçən hava limanlarını, eləcə də İstanbul valiliyinin binasını mühasirəyə almış, Boğaziçi və Fateh Sultan Məhmət körpülərini bağlamışdılar.

Hərbi helikopterlər Ankarada Prezident sarayı kompleksinin və Türkiyə Böyük Millət Məclisinin, habelə Ankara Polis İdarəsinin və Milli İstixbarat Təşkilatının binalarını atəşə tutmuşdur. Prezident sarayının yaxınlığına atılmış bombalar nəticəsində iki nəfər həlak olmuş, parlamentin binasına isə maddi zərər dəymişdir. Ankaradakı Polis Təlim Mərkəzinin bombalanması nəticəsində 17 polis əməkdaşı həlak olmuşdur. Hərbi hava qüvvələrinin təyyarəsi qiyamçıların istifadə etdikləri helikopterlərdən birini vurmuşdur. Qiyamçıların Ankaranın Kazan rayonunda yerləşən və qiyamçıların qərargah kimi istifadə etdikləri hərbi aviasiya bazasından nümayişçilərə atəş açılmış, nəticədə 6 dinc sakin həlak olmuş, 55 nəfər yaralanmışdır.

Qiyamçılar TRT-nin ekranından diktorun dili ilə bəyanat oxutduraraq siyasi iqtidara qarşı çoxsaylı ittihamlar irəli sürüb Türkiyə Silahlı Qüvvələrinin hakimiyyəti ələ keçirdiyini bəyan etmişdilər. Onlar "Yurdda sülh şurası" adlı qondarma təşkilat adından çıxış etdiklərini bildirmişdilər.

Ölkənin Baş naziri Binəli Yıldırım qiyamçıların hakimiyyəti ələ keçirməsi iddiasına dərhal reaksiya verərək biıldirmişdi ki, dövlət orqanları iş başındadır və qiyamın rəhbərləri zərərsizləşdiriləcək. Hökumətin başçısı əlavə etmişdi ki,Türkiyənin şərqində və cənub-şərqindəki terror hadisələri nədirsə, bu da o cür terror hadisəsidir: "O tankların içindəki əsgərlərlə havadan bomba yağdıranlar bir terror təşkilatının üzvləri kimidirlər. Belə bir iş şanlı Silahlı Qüvvələrimizdə xidmət edən heç bir əsgərimizə yaraşmaz. Bu, cümhuriyyətimizə, millətimizə və əsgərimizə ən böyük təhqirdir. Bu gün demokratiyaya, millətə sahib çıxmaq günüdür". Baş nazir vurğulamışdı ki, "bizi iqtidara millət gətirmişdir, burdan aparacaq olan da millətdir. Bu, axmaq və çılğın bir cəhddir. Bu soysuzlar ən ağır cəza alacaqlar". Hökumətin başçısı elan etmişdi ki, təhlükəsizlik qüvvələri qiyamı yatırmaq üçün artıq hərəkətə keçmişdir.

Marmarisdə istirahətdə olan Prezident Rəcəb Tayyib Ərdoğan qiyam başlayandan dərhal sonra, Atatürk hava limanı mühasirəyə alınmamışdan qabaq İstanbula qayıtmışdı. O, Marmarisdəki "Grand Yazıcı Club Turban" hotelini tərk etdikdən 1,5 saat sonra əraziyə hərbi helikopterdən bomba atılmışdı. Sonra qiyamçı hərbçilərlə polis arasında atışma başlamışdı. Atışmada 3 polis əməkdaşı həlak olmuşdur. Qiyamçılar həmçinin dövlət başçısının köməkçisini girov götürmüşdülər.

***Ardı 3-cü səh.***

# Türk millətinin iradəsi hərbi qiyama qalib gəldi

## *Prezident Rəcəb Tayyib Ərdoğan: "Türkiyənin böyüməsini, bu millətin güclənməsini həzm edə bilmirlər"*





*Əvvəli 1-ci səh.*



Ərdoğan hava limanından NTV telekanalının canlı yayımına bağlanaraq bəyan etmişdi ki, Fətullahçı Terrorçu Təşkilatın (FTT) əmri ilə hərəkət edən qiyamçılar istəklərinə nail ola bilməyəcəklər. Dövlət başçısı qeyd etmişdi ki, milli iradəyə qarşı çıxanlar qanuna uyğun şəkildə cavablarını alacaqlar: "Türkiyə bu cür qiyamlarla ucuz satılacaq ölkə deyildir, Pensilvaniyadan idarə ediləcək ölkə deyildir". Ərdoğan ölkə vətəndaşlarını küçələrə və meydanlara çıxmağa çağırmışdı: "Xalqımızla əl-ələ verib bu qiyamı həyata keçirənlərə lazımi cavab verəcəyik".

Televiziya ilə xuntaçılara müraciət edən eks-prezident Abdulla Gül onları leqal hökuməti devirməyə təşəbbüsdən vaz keçməyə çağırmışdı. O, hadisələrin tezliklə bitəcəyini və təhlükəsizlik qüvvələrinin prosesləri tamamilə nəzarət altına alacağına inandığını bildirmişdi.

Ölkədə fəaliyyət göstərən siyasi partiyalar da dövlət çevrilişi cəhdini pisləmişdi. Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı bildirmişdi ki, qiyam qəbuledilməzdir, partiya iqtidarın yayındadır. Cümhuriyyət Xalq Partiyasının lideri Kamal Qılıcdaroğlu Türkiyənin dövlət çevrilişlərindən çox zərər çəkdiyini qeyd etmiş, başçılıq etdiyi siyasi təşkilatın cümhuriyyətin və demokratiyanın yanında olduğunu vurğulamışdı.

Türkiyə Silahlı Qüvvələrinin ayrı-ayrı qoşun növlərinin komandanları, eləcə də xüsusi təyinatlı qoşunların komandanlığı televiziya ilə çıxış edərək ordunun qiyamı dəstəkləmədiyini vurğulamış, küçələrə çıxmış əsgərləri kazarmalara qayıtmağa çağırmışdılar. Onlar dövlətə sadiq qaldıqlarını, qiyamı yatırmaq üçün lazımi tədbirlər görəcəklərini bildirmişdilər.

Dövlət rəhbərliyinin çağırışı ilə xalq Ankara və İstanbulun, həmçinin digər şəhərlərin küçə və meydanlarına çıxdı. Vətəndaşlar qiyamçıların zəbt etdikləri strateji obyektlərin ətrafında toplaşdılar. Boğaziçi körpüsünü bağlayan əsgərlərlə polis arasında atışma baş verdi. Ardınca təxminən 50 əsgər polisə təslim oldu. Daha sonra körpü üstündəki tanklar vətəndaşların əlinə keçdi. İstanbul valiliyinin binası da qiyamçılardan təmizləndi. Hava limanları işini bərpa etdi, körpülər yenidən açıldı.

Ankarada da polislə xalq qiyamçılara qarşı birgə hərəkətə keçdi. Vətəndaşlar dövlət bayraqları ilə Prezident sarayı kompleksinə, Ədalət və İnkişaf Partiyasının mərkəzi iqamətgahına və Ankara Polis İdarəsinin binasına doğru yürüş etdilər. Jandarma Baş Komandanlığının binası, eləcə



də TRT, TÜRKSAT və digər strateji obyektlər dövlətin nəzarəti altına qayıtarıldı. Jandarma Baş Komandanlığının binasında keçirilmiş əməliyyat zamanı 16 qiyamçı öldürüldü, təxminən 250-si həbs olundu. Təhlükəsizlik qüvvələrinin keçirdiyi əməliyyat nəticəsində Silahlı Qüvvələrin Baş Qərargahının binası qiyamçılardan təmizləndi, cinayətkarlar təslim olmaq məcburiyyətində qaldılar.

Dövlət çevrilişi cəhdi türk millətinə baha başa gəldi. 161 vətəndaş həlak olmuş, 1440-ı yaralanmışdır. Qiyamçılardan təxminən 20-si öldürülmüş, 30-u yaralanmışdır.

Əldə olan məlumata görə, hərbi qiyamı Silahlı Qüvvələrin Baş Qərargahının bir müddət əvvəl istefaya göndərilmiş hüquqi məsələlər üzrə müşaviri polkovnik Məhərrəm Kösənin rəhbərliyi ilə 37 zabit planlaşdırmışdı. Qiyamçılar dövlət çevrilişinin baş tutacağı təqdirdə dövlət orqanlarında və orduda yüksək vəzifələrə təyin etmək üçün 400 nəfərdən ibarət siyahı da hazırlamışdılar.

Prokurorluq dövlət çevrilişi cəhdində iştirak edənlər barədə cinayət işi qaldırmışdır. Silahlı Qüvvələrin Baş Qərargahının rəisi Hulusi Akar girovluqdan azad edilmiş və yenidən səlahiyyətlərinin icrasına başlamışdır. Ölkənin müxtəlif vilayətlərində jandarma və Silahlı Qüvvələrin qiyamda əli olan zabitləri həbs olunmuşlar. Baş nazir Binəli Yıldırımın verdiyi məlumata görə, aralarında çoxlu sayda general, polkovnik və polkovnik-leytenantın olduğu 2839 qiyamçı artıq dəmir barmaqlıqlar arxasındadır. İkinci və üçüncü orduların komandanları həbs edilmişdir. Kazançıdakı aviabaza nəzarət altına alınmış, qiyamın əsas təşkilatçılarından sayılan hərbi hava qüvvələrinin sabiq komandanı, ordu generalı Akın Öztürk digər zabitlərlə birlikdə silahı yerə qoyaraq təslim olmuşdur. Qiyamçılardan 8-i hərbi helikopterlə Yunanıstana qaçmışdır. Rəsmi Ankara xainləri dərhal geri qaytarmağı tələb etmişdir. Yunanıstan hökuməti zəruri prosedurlar həyata keçirildikdən sonra bu tələbi yerinə yetirəcəyini bildirmişdir.

Həbs dalğası məhkəmə orqanlarından da yan keçməmişdir. Müxtəlif məhkəmə instansiyalarında çalışan 25 hakim FTT-nin üzvü olmaq ittihamı ilə həbs olunmuş, 38 hakim barədə axtarış elan edilmişdir.

Beynəlxalq ictimaiyyət Türkiyədə dövlət çevrilişi cəhdinə sərt reaksiya vermişdir. Dünya liderləri xalqın azad iradəsi ilə seçilmiş legitim hakimiyyəti dəstəkləmiş, hərbi qiyamın yatırılmasını alqışlamışlar. Avropa İttifaqının liderləri birgə bəyanatla çıxış edərək çevriliş cəhdini pisləmiş, demokratik yolla seçilmiş hökuməti, dövlət təsisatlarını və qanunun aliliyini tamamilə dəstəklədiklərini ifadə etmiş, tezliklə konstitusiya quruluşuna qayıtmağa çağırmışlar. Avropa Şurasının baş katibi Turbörn Yaqland bildirmişdir ki, Türkiyədə demokratik yolla seçilmiş liderləri devirmək üçün hər hansı cəhd AŞ-nin üzvü olan, demokratiya, insan hüquqları və qanunun aliliyini müdafiə edən dövlətdə qəbulolunmazdır. Almaniya Kansleri Angela Merkel bütün alman xalqı adından qiyamçı hərbçilərin Türkiyə hökumətini və ölkənin seçilmiş Prezidentini zoraki vasitələrlə devirmək cəhdini qətiyyətlə pisləmişdir. Böyük Britaniya, Belçika, İtaliya, Albaniya, Serbiya və digər dövlətlərin məsul şəxsləri də Türkiyənin yanında olduqlarını ifadə etmişlər.

Qardaş ölkə növbəti faciənin gerçəkləşməsinə imkan vermədi. Türkiyə cəmiyyəti iqtidarı, müxalifəti, vətəndaş cəmiyyəti, mediası ilə bir yumruqda birləşərək xain şəbəkənin milləti qaranlığa sürükləmək planının üstündən xətt çəkdi.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***